AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI

ƏLİYEVA LEYLA İSAX QIZI

( *Magistrantın soyadı,adı, atasının adı*)

# VENESİYA KARNAVALI

(*Magistr yaradıcılıq işinin adı*)

**Təsviri sənət** **Akademik Rəngkarlıq**

*(fakültə)* *(kafedra)*

**Diplom rəhbəri:** **professor N. Əbdürrəhmanov**

**Rəngkarlıq ixtisaslaşma üzrə**

**MAGİSTR BURAXILIŞ YARADICILIQ İŞİNİN REFERATI**

**BAKI-2008**

# GİRİŞ

Dünyanın ən qədim karnavallarından biri olan Venesiya karnavalının ilk dəfə nə vaxt qeyd edildiyi ilə bağlı bir neçə versiya var. Tarixçilər 998, 1094 və 1162-ci illəri güman edirlər. Kilsə xristianlıqdan qabaqkı ənənələri yeni inanca uyğunlaşdırmaq və inanclıları böyük oruca hazırlamaq üçün karnavaldan istifadə edirdi. Bu bayramın son günü "Yağlı çərşənbə axşamı" adlanır.Karnaval sözü aclıq,oruc,ac qalmaq mənasına gəlir.

Venesiya karnavalı 1268 ci ildə qeyd olunmağa başlayıbdı, əslində, bu karnavalın təməli Pagan mədəniyyətində baharı qarşılamağa söykənir. İlk qeyd olunmağa başlandığı vaxt ictimai sinif ayrı seçkiliyini aradan qaldırmaq üçün maskalar istifadə edilirdi.

Orta əsrlərdə italiyalılar pasxa bayramı başlamadan Venesiyaya toplaşar, günlərlə yeyib içib əylənərmiş. Bu ənənənin davamı olan Venesiya karnavalının diqqət çəkən məqamlarından biri isə iştirakçıların hamısının üzlərini maska ilə gizlətməsidir. Bunun da maraqlı səbəbi var. Belə ki, hər kəsin üzü gizli qaldığından kimin varlı, kimin kasıb olduğunu başa düşmək olmur, bu səbəbdən də hamı bərabər səviyyədə əylənə bilir. İkinci bir tərəfdən həmin maska istənilən iştirakçıya utanıb-çəkinmədən istədiyi şəkildə çılğınlıq etməyə də fürsət yaradır.

Başqa versiya da isə bu adət romalıların keçirtdikləri Saturinalilərdən qaynaqlanır. Həmin yığıncaq bərabərlik və tərəqqinin hökm sürəcəyi qızıl əsrin şərəfinə keçirilirdi. Bayram ərəfəsində qullar azad vətəndaşlarla eyni süfrə arxasında əyləşir, sahibləri isə onlara şərab gətirərdi. Lakin şərti qaydaların şənliyi pozmaması üçün iştirakçılar sifətlərinə maska taxırdılar.Mərasimdə seçilən yalançı şah özünü öldürməli idi. Karnavalın keçirilməsi ilə əlaqədar müxtəlif versiyalardan biri də zamanında,vəba xəstəliyindən qorunmaq üçün bu maskalardan istifadə edilirdi. Başqa məlumata görə karnaval haqqında ilk məlumat XI əsrə aiddir. Başqa bir rəvayətə görə, isə bu daha əvvələ, gənc venesiyalıların öz nişanlılarının dəniz quldurlarından xilas etdikləri tarixə, yəni 998-ci ilə gedib çıxır. Venesiya karnavalları öz çiçəklənmə dövrünə XVIII əsrdə çatdılar.

1790-cı illərdə, Napoleonun Venesiyanı ələ keçirdiyi, daha sonra isə Avstriyanın idarə etməyə keçdiyi zamanlarda şəhərin sakinləri bu bayramı demək olar keçirmirdilər.

Məhşur karnaval 200 il unudulsa da, ənənə 1970-ci illərdə yeniləndi və 1980-cı ildə dirçəliş dövrü başlandı. Venesiyalılların dünyada məşhur olan karnavalı fevral ayında keçirilir və günlərlə davam edir. Sərhədsiz fantaziya, ağlasığmaz, rəngarəng kostyum paradı, dinamik musiqi altında rəqs, atəşfəşanlıq, şən səhnəciklər küçələrdə sayrışan müxtəlif rəngli qayıqlar,

əlbəttə ki, insan bunlara tamaşa elədikce valeh olur. Venesiya Karnavalı bənzərsiz koloriti ilə həmişə sənətçilər üçün ilham mənbəyi olub ve bu əsərlərində əsrarəngiz gözəlliyi təsvir etməyə çalışmışdır.

## RƏSMİN MƏZMUNU

Gələcəyin peşəkar rəssamı kimi, mənim də yaradıcılığımda fiqurlu kompozisiya motivi mənə çox maraqlı olmuşdur. Tələbəlik vaxtlarında fiqurlu kompozisiya mövzusu məni özünə cəlb edən sahələrdən idi. Qarşıma məqsəd olaraq, bu sahədə hələ işlənməmiş mövzu seçməyə çalışırdım. Axtarışlardan sonra Venesiya Karnavalı mövzusu məni maraqlandırmağa başladı və Akademiya tələbələrindən bu mövzuda işləyən olmamışdı. Bu mövzunu seçmək üçün başqa səbəb isə Venesiya Karnavalının keçmişdəki qaranlıq tərəfinin olmağı, vəba xəstəliyi, yaxud Buddist dini ilə əlaqələri,gizli, sirli hadisələrə və sairə aid mərasimlərin qeyd olunmağı idi. İncəsənət aləmində Venesiya Karnavalına heyranlıqlarını gizlətməyən rəssamların çoxu bu mövzunda yaradıcılıq işlərində qışqıran, şişirdilmiş rənglər istifadə edibləR. Onlar indiki zamanda qeyd olunan karnavalın təsiri ilə bu cür rəsim əsərlərinə yer veriblər. Bu təsirləri Fransız rəssamı Marcel Nino Pajot, Yelena Komarovanın əsərlərində də görə bilərik. Amma məni ən çox özünə cəlb edən və maraqlandıran tərəfi maskaların altında özünü, əsl xasiyyətlərini gizlədən adamların məndə qəribə hisslər yaratmağı idi. Baş verən hadisələr altında gizlənən həqiqətlər haqqında fikirləşmək, bu təsirləri diplom əsərimdə kompazisiya qaydalarına əməl edərək rəsm motivlərinin bütün elementlərini nəzərə alaraq tədbiqedə bilmək öhdəmə düşən əsas vəzifələrimdən idi. Qabağıma qoyduğum əsas məqsəd çox bəyənsəmdə Marcel Nino Pajot və başqa rəssamların və əsərlərinin rəsim əsərinin yaradıcılıq prossesində təsiri diplom işimdə özünü biruzə verməməyi idi.

Mövzunun əsaslandırılması: Venesiya Karnavalı mövzusunda məhşur rəssamlar çoxlu sənət əsəri yaradıblar. Bu rəssamlardan biri də Fransız Qrafika ustası Marcel Nino Pajodur. Onun yaradıcılığında Venesiya Karnavalı mövzusu əsas yer tutur.

Marsel uşaqlıq illərindən rəsimlə maraqlanırdı, lakin əvvəlcə əsgər oldu və yeniyetmə çağında Tül İncəsənət Məktəbinə daxil oldu . Amma Tül İncəsənət Məktəbini qurtara bilmədi. Marcel Nino Pajonun əsərlərində məni cəlb edən cəhətlərdən biri çəkilən əsərdə elə bil ki, xüsusi bir hadisə aşkara çıxır, insanların və maskaların arxasında dayanan gizli, sirlər,

hekayələr və səhnə arxasında davam edən sərgüzəştlərdir. Rəssam öz əsərlərini belə qiymətləndirir: "Mənim əsərlərimdə lirizm,bayram əhval ruhiyyəsi,təəccüb, sirr, komediya ve faciə birlikdə olduğu üçün paradoks və ironiya özünə məxsus yer tutur ". Müəllifin dediyi kimi əsərlərində zəngin kolorit ilə birgə sirli, gizli bir hadisə gizlənibdi. Zənnimcə, istifadə etdiyi kontrast və soyuq rənglər bu abu-havanı yaradıbdı. Yaradıcılıq həyatında Venesiya Karnavalı mövzusuna əhəmiyyət verən rəssam əslində, bu karnavalın arxasında dayanan bir-birinə zidd olan sirli hadisələri üzə çıxarmaq istəyib. Göyü mavi rəngdə yox, məhz boz rəngdə rəngləməyi, işdə qara rəngdə geyinən insanların çox olmağı əsərdə,pərdə arxasında bilmədiğimiz bəzi gizli hadisələrin baş verdiyini göstərir. Marselin Veyer (Yelpik) əsərinə baxan da, yenə də, hər yerdə maska taxan adamları görürük. Yəni Fransız rəssamın həyat yaradıcılığında maskalar və karnaval əhval-ruhiyyəsi əsas yer tutur.



Həqiqətən, Marselin əsərlərinə baxanda hadisələrin paradoksal inkişafını görürük. İnsanların taxdıqları qəribə ifadə kəsb edən, donub qalmış mimikalı maskaları  əsərə diqqətlə baxan da səni təşvişə salır.

Başqa prizmadan baxanda isə, nöqtə kimi yeni ildə bəzədiyimiz şam ağacındakı muncuqlara oxşayan detallar,gupur lentlər bir bayram abu-havası yaradır.Nanə ətri əsərinə tamaşa edən də bu effektləri görə bilərik. Ümumiyyətlə, Marcelin Don Kixot və yaradıcılığının ilk illərindəki əsərlər istisna olmaqla, karnavala aid əsərlərində faktura, rəng, ləkə, kontrastlıq və s. özünü mükəmməl şəkil də biruzə verir.Yəni bu əsərlərinin çoxunda eyni tərzdə effektlər istifadə edilibdi.



**Nanə ətri**



**Qiymətli**



**Qırmızı maska**

Marcel Ninonu mәncә karnaval vә maska mövzusunun ustadı kimi dә qiymәtlәndirә bilәrik. Bu silsilәdәn Qiymәtli vә Qırmızı maskalı әsәrinә baxan da әsәrdәki fiqurların üzlәrindә maraq hissi görürük. Sanki, onlar bilmәdiklәri hadisәnin axırını inkişaf prossesini maraqla gözlәyirlәr. Hәtta onlara aid olmayan hadisәlәrә kobud şәkildә desәk " burunlarını soxurlar". Bәli, fransız rәssam Marcel Pajot iki zidd mәhvumu rәngarәng, yüngül hәyat tәrzi vә gizli,sirli hadisәlәri әsәrlәrindә birgә istifadә edirdi. Bu mәnә sadәcә diplom işimdә çox az proqress әldә etmәyә kömәk etmişdi.



**Veyer əsəri.Kətan, Qarışıq texnika 2004.**

Venesiya Karnavalı və maska mövzusunda işləyən başqa rəssamlardan biri də, Belarus rəssamı Oleq Çubakovdu.Oleq Çubakov 1969 cu il Belarusiyanın Minsk şəhərində anadan olub. 1981-ci ildən 1985-ci ilə qədər Minsk Rəssamlıq Məktəbində təhsil alıb. 1990-cı ildən 1995-ci, o İncəsənət Belarus Akademiyasının dəzgah qrafikası fakültəsini bitirmişdir. 1995-ci ildən mütəmadi olaraq beynəlxalq sərgilərdə iştirak edir. Oleq Çubakov Fransız rəssam Marsel Pajo qədər karnaval mövzusunda çoxlu əsərlərə malik olmasa da, bu mövzuyla bağlı

bir neçə ədəd rəngkarlıq işləri var. Bunlardan biri əlində qızılgül tutan qadınlar olan əsəridi. əslində bu əsərində rəssam Elena Komarovanın rəsimləriylə oxşar cəhətlər olduğunu fikirləşirəm.



Elena Komarova  Bereznyak şəhərinin Perm rayonunda 1986-ci ildə anadan olub, 1988-ci ilə Çuvaş Dövlət Pedaqoji Universitetinin  Qrafika fakültəsini qurtarıb.




Elena Komarovanın "Deniz ilə Nişan" əsərinə baxanda, görürük ki, Oleq Çubakovun Karnaval ilə bağlı işi ton,rəng koloriti, kompozisiya baxımından sənət əsərləri bir birinə oxşayır. Hər iki əsərdə də fiqurlar sabit dururlar. Oxra rəngləri üstünlük təşkil edir. Bu da əsərə soyuq abu hava qatır.

Venesiya Karnavalı mövzusunda işləyən ressamların əsərlərində çoxlu oxşar cəhətlər var. Bu rəssamlar əsasən karnavalın şən, parad əhval ruhiyyəsini,rəngli kadrları rəsimlərində əks etdiriblər.Amma mənim bu mövzuya baxış prizmam fərqlidi. Mən Maqistratura diplom işimdə Venesiya Karnavalının indiki zamanda keçirilən bu Karnavalın canfəşanlığını yox, daha çox keçmişdə keçirilmə səbəbinə bağlı olan pərdə arxasındakı sirli, gizli qalan, maskalardakı soyuq, buz kimi, sabit,quru üz mimikalarının mənə bəxş etdiyi təsiri əks etdirmək istəmişəm.

Eskizlər : Diplom işimdə mavi rəng çalarlarına üstünlük verdim. İşim rəng, fikir, kompozisiya cəhətdən oxşasada, ölçü, fiqurların sayı və s. cəhətdən fərqli diptix əsərlər idi.

Birinci mərhələdə fərqli eskizlərlə, təxəyyülümdə canlandırdığım əsəri qaralama formasında çəkərək işə başladım. Öhdəmə düşən vəzifəni düz yerinə yetirməli idim. Buna görə də rəngkarlıq qayda-qanununa riayət edərək eskizləri çəkməyə çalışdım.Misal üçün birinci eskizlərdən biri olan bu eskiz balaca ölçülərə malik karton üzərinə, qara və tünd göy rənglər istifadə edərək çəkilmişdi. Bu eskizə baxanda, qaranlıq gecədə üzlərində maska olan, karnaval kostyumları geyinən iki nəfəri görürük. Burda üçgünc ləkə kompozisiyasından istifadə etmişəm. Bütün eskiz və əsərlərdə olduğu kimi bu eskizdə də, həm də xaçvari kompozisiyadan istifadə etdim.



Kompozisiya nədir sualına cavab olaraq incəsənət aləmində cox əhəmiyyətli yeri olduğunu deyə bilərəm.  Kompozisiya incəsənətin bütün növlərinə məxsusdur. Kompozisiyanın əsasları memarlıq tikililərində, musiqi əsərlərində ədəbiyyatda, heykəltaraşlıqda və rəssamlıqda,  teatr tamaşası və kinofilmdə də mövcuddur.

Kompozisiya bədii formanı təşkil edən komponent, əsərə vahidlik və bütövlük verən, onun bütün elementlerini bir-birinə və ümumiyyətlə tabe edəndir.

"Kompozisiya " termininədən, həmçinin çox fiqurlu rəsm əsərləri və ya heykəl qrupunu da, bildirmək üçün istifadə olunur. Dar professional çərçivədə, kompozisiya çox vaxt hətta naturadan çəkilmiş etüdə də deyilir.

İncəsənət həyat kimi nə qədər sərhədsizdirsə, kompozisiya məsələsi də fövqəladə mürəkkəb və çox mənalıdır.

Əsərin yaxşı və ya pis olmasını hər kəs özü başa düşdüyü kimi qiymətləndirə bilər. Amma kompozisiyanın yaxşı ya da pis olmasını ancak zərif zövqlü biliciler ve bilikli peşəkar ustalar deyə bilər.

Kompozisiya qanunlarını izah etmək çətindir. İstər rəngkarlıq əsərində, ya da heykəltaraşlıq və memarlıq abidəsində kompozisiyanın əhəmiyyəti böyükdü.

Əlbəttə ki, diplom işimə balaca, fərqli eskizlərlə başlamışdım, əvvəlcə kompozisiya qanunlarına tabe olan və olmayan eskizlər ilə başladım. Sonra kompozisiyanı qanuna uyğun şəkildə yerləşdirdim. Venesiyanın kanallar şəhəri olduğunu yaddan çıxartmadan arxa planda iki işdə də San Marko memarlıq abidəsinin siluetini fırça zərbələri, tünd açıq rəngləri istifadə edərək verdim. Əlbəttə ki, bu meydanı diplom işimdə yerləşdirmədən əvvəl eskiz və qaralamasını çəkmişdim. Aşağıda gördüyünüz hazırlıq mərhələsi üçün çəkilən eskizlərdə də hardasa rəng və çalarlar eyniylə diplom işimdə də istifadə etmişdim.





Bu eskiz ölçüləri böyük olduğu üçün əsər kimi də qələmə verilə bilər. İşdə xaçvari kompozisiya mövcuddur. Qabaq planda elə bil, qayıqlar dənizin sükunətini pozublar. Bu eskizi ikinci işə tədbiq etmişəm. Həm rəng, həm də ləkə cəhətdən ikinci əsərdə işi cəm edən əhəmiyyətli yer tuturdu.

Birinci işə başlamamışdan əvvəl iki fiqurlu üç fiqurlu kompozisiyalar işləmək daha çox xoşuma gəlirdi. Bu üç fiqurlu kompozisiyanı ikinci işdə istifadə etmək qərarına gəldim. Nadir Əbdürrəhmanovun tövsiyəsi ilə tək fiqurlu kompozisiyamızı qurduq. İşin birinci mərhələsində, arxadakı fonda kətanın aşağı hissəsində üfüq xəttinə paralel şəhər mənzərəsini çəkmişdik. Bu mənzərə kətanın uzunluğunun ən aşağı hissəsində yer almışdı.

Qadın fiqurunu isə, tablonun mərkəzinə : kompozisiya qanunlarına tabe olaraq yerləşdirmişdim. Qadın yarımçıq çöməlib, amma özündən razı şəkildə əlində yelpik tutur. Qadının libası qara rəngdədi. Üzünə maska taxıb. Sanki qadın intriqaya hazır vəziyyətdə gözləyir. Fiqurun boynundakı ipək şarf ucları elə bil ki, həfif, sakit külək əsdiyinə görə dalğalanmışdı. Bu əsərə yüngüllük gətirmişdi. Bu əsərdə ümumi rəng tonu tünddür, əsasən ultramarin, kraplak, fts yaşıl, qırmızı, umbra rənglərini və bu rənglərin bir-biri ilə qatışığını istifadə etmişəm. Nəticə etibarıyla, işin tonu tünd, hətta qara rəngə yaxın oldu. Əsərdə istədiyim abu-havanı yaratmağa nail olmuşdum, əlbəttə ki, çatmayan bir cəhət var idı. Bu işin əhəmiyyətli mərhələsində işdə işıq və ləkə və rəng əksik idi.

Rənglərin, işığın qarşılıqlı əlaqəsi,açıq yaxud tünd, işıqlı yaxud tutqun, parlaq yaxud solqun, nikbin yaxud dramatik koloriti, obrazları səciyyələndirən mühüm təsvir vasitəsidir.

Rəngkarlıq əsərləri obrazlı təfəkkürün nəticəsidir və həmin obrazlar bu sənətin özünə məxsus təsvir vasitələri rəssamın ilhamlı xəyalının, əl qabiliyyətinin, hiss və duyğularının məhsuludur.

Magistr diplom işimdə yaratmaq istədiyim, xəyalımda işıqlandırdığım qadın obrazını həm rəng, həm kompozisiya cəhətdən zəyif qalan tərəflərini rəngkarlıq dərsində aldığım bilik və təcrübə vasitəsiylə düzəltməyə nail olmuşdum.

Şəkildə də gördüyünüz kimi qadın fiqurunun üzünün görsənən yerinə, yelpik tutan və ədalı açılmış əlinə açıq hardasa, ağ və soyuq rəng ilə ləkə atmışdım. Rəng bu kompozisiyanı

tarazılaşdırmışdı. Sonra arxada gecə mənzərəsinə fırça zərbələri ilə işıqlar vurdum. Son etap da qadının maskasında quş lələkləri var və detala mavi, bənövşəyi, yaşıl, çəhrayı rənglər qoyaraq işi qurtaqdım.

Birinci diplom işimdə şəhərin işıqlarında, maskada, qadının geyimində, tünd kölgəli və qaranlıq yerlərdə fırça zərbələrindən istifadə etmişəm.

Bu əsərə baxanda qadının arxasında horizontal şəkildə kanaldan keçən qondola görürük. Bu qondola sanki, sükunətin, yüngüllüyün rəmzi kimi orda dayanıb və tarazılığı qoruruyur. Qadın isə elə bil ki,özündən razı şəkil də, hər şeyə sinə gərib, hamının, bütün çətinliklərin öhdəsindən gələ

bilərəm,mən heç nədən, heç kimdən qorxmuram ismarışını çatdırmaq istəyir. Əlində tutduğu yelpik oyuna hazır olduğunu göstərir. Bu xüsusiyyətlərinə baxmayaraq, yenə də qadın öz incəliyini, zərifliyini itirməyibdi.

Əsəri seyr edən də güclü, soyuq, qadın obrazını görürük. Amma bizi dilləmaya salan cəhət maskanın arxasında dayanan obrazın həqiqi , əsl üzüdü.

Diptixin birinci əsərində yaratmaq istədiyim obraz bəlkə də daxilimdə olan, xəyallarımda canlandırdığım obrazdır. Bu bütün rəssamların əsərlərində olan cəhətdir. Bəzi rəssamlar obrazlarını özləridə xəbərsiz özlərinə oxşadırlar. Bu xasiyyət ya da sima xarakterini əks etdirərək öz-özünə olan prossesdir.

Bu işimdə insanlara çatdırmaq istədiyim ismarış maskanın altında gizlənən adamın necə; yaxşı yoxsa pis, güclü, yoxsa zəyif bir cəhətə malik olduğunu ancaq, onun mövqeyindən və yaxud bəzi hərəkətlərindən müəyyən etmək olar. Maskanın altında gizlənən adam hansı xasiyyətə malik olursa, olsun fərqi yoxdur, insanı sual işarəsi ilə hərəkət etməyə sövq edir.



İkinci işimdə isə çox fiqurlu kompozisiyaya üstünlük verdim. Əslində,eskizlərim də istifadə etdiyim fiqurlardan burda da istifadə etdim. İlk növbədə üç fiqur çəkdim,tünd qara rənglərdən

az istifadə etməyə çalışdım. Karnavala gedən rəfiqələr eskizimdə bu şən əhval ruhiyyə özünü biruzə verir.



Yenə uzaqda üfüq xəttində bir ulduz kimi parıldayan şəhər var. Bu şəhərin işıqları dənizin üstündə öz əksini tapıb, istifadə edilib yerinə bağlanıb, sakit- sakit səhəri gözləyən, ətraflarında baş verən hadisələrə tamaşa edən böyük, qoca qondolalar dayanıbdı. Arxa planda gözümüzə ilişən ritmdi. İşin ikisində də arxa plan da ritm var. İlk çəkdiyim eskizlərə baxan da açıq göy, mavi,çəhrayı, firuzəyi, limon sarısı, ağ rəngin çalarları,açıq bənövşəyi, qızılı oxra, qırmızı,sumaxı və sairə rənglərlə çəkdiyim nəzərə çarpır. Bəli, birinci eskizlərdə bu

rənglərə üstünlük vermişdim,amma sonra irəlileyen günlərdə yavaş-yavaş karnavalın o abu-havasından çıxmaq istədim. Buna baxmayaraq yenə də magistratura diplom işimdə göy rənglər hökmranlıq edir. Bunun da, əsas səbəblərindən biri də Venesiya Karnavalını axşam vaxtı çəkmək idi. Çünkü, köhnə vaxtlar da bu bayram axşam vaxtı keçirilirdi. Axşamüstü maskanın altında hansı adam olduğu bilinmirdi və çox adam eləmək istədiyi işi - yaxşı yoxsa pis fərqi yoxdu asanlıqla edə bilərdi. Bəzən bu maskanın altında cani ola bilərdi və yaxud eyni masada tanınmış,məhşur bir nəfər otura bilərdi.

Mənim də, magistr diplom işimdə düz müstəvi şeklində olan kətan tabloda tamaşaçıya çatdırmaq istədiğim məna məhz budur. Buna ancaq soyuq, tünd, kontrast rənglər ile çəksəm nail ola bilərdim və bu rənglər ilə bərabər mistika havasını yumuşaq,yüngül, hafif ləkələr ilə çəkmək lazım idi. Əsərdə

bütün bunların hamısını vermək üçün sadəcə fırçadan istifadə etmədim, əlbəttə ki, rəsim malası (mastixina), yağlı boya ilə birgə akrilik boya da istifadə etdim. Həmçinin, internet saytlarından və Cəmil Müfidzadə müəllimin Venesiya şəhərində çəkdiyi şəkillər də işimi uğurla davam edə bilməyimə kömək etdi. Nadir müəllimin düz məsləhətləri mənim işimi xeyli asanlaşdırdı.

İstifadə etdiyim materiallardan biri isə Venesiya Karnavalı mövzusun da xüsusi buraxılışı olan jurnal idi. Bu jurnal da mənə lazım olan təxəyyülümdə təsvir etmək üçün kifayət qədər məlumat və şəkillər var idi. Bütün bu məlumatları, informasiyaları yığıb işimdə tədbiq etdim. Zənnimcə, istədiyim, təsəvvür etdiyim nəticəni ala bilmişdim.

Aşağıda gördüyümüz əsəri də,yəni eskizi də diptixin ikincisinə tədbiq etdim. Arxa tərəfə baxanda əsərdə eyni tərzdə dəniz mənzərəsi gözümüzə sataşır. Eyni ritm, rəng çalarları, fırça zərbələri, rəsmi gözəl göstərir.

Bu eskizlər bu rəsimdə kontrastlı rənglərdən istifadə rəsmin ümumi rəng kompozisiyası həllinə kömək edir. Eskiz ilə əsərə baxanda da bütün rənglər açıq rənglərə tabe olur.

Rəsmin arxa planında sarı, yaşıl, qırmızı - xüsusilə impressionistlərə xas olan ləkə üslubundan istifadə etmək üçün rəsimlərin düzgün düzülüşü, vəhdəti, ahənginə çalışmışam.



Bu referatda hər iki rəsmin təhlilini vermək üçün bəzi ümumi nəzəri məsələlərə də diqqət yetirməyim vacibdir. Belələrindən biri tablo müstəvisindəki rənglərin qarşılıqlı əlaqəsidir. Məhz rənglərin bu vəhdətin mürəkkəb məsələlərin təsvirinə istiqamətləndirir. Rəsmlərin vəhdəti

məsələsində qonşu predmetin rənglərindən əmələ gələn refleks, yaxud başqa sözlə desək, işıqlanmasıdır. Bu məsələ haqqında , hələ Leonardo da Vinçidən başlamış digər rəssamlarda məşğul olmaqla, onun qanuna uyğunluqları haqqında yazmışlar. XIX əsrdə bu anlayış açıq havanın rənginin müşahidəsilə daha da dərinləşir. Bir qədər sonralar impressionistlərin tablolarında kölgə, ləkələr müxtəlif reflekslərin yaradılmasına ciddi təkan verdi.



Bu məsələlərin tədbiqini, əvvəlcə eskizlərdə, sonra isə hər iki işimdə də qabartmağa çalışmışam.

Diptixin ikincisində iki fiqurlu kompozisiya qurdum. Sanki onların arasında bir dialoq gedir.

Bununla birgə bir əlində veyer tutan qadın saymazyana qulaq asır. Kişi fiqur tamamilə qara rəng də kostyum geyinib, xanıma əli ilə maskasının yəni üzünün ciddi mimikası ilə nəsə başa salmaq istəyir, lakin qadın elə bil ki, xəyala dalıb. Biraz qadınlara məxsus inciklik və naz hiss

olunur. Qadın fiquru ilk iki fiqurlu Venesiya Karnavalına gedən qadınlar eskizindəki birinci planda duran qadın fiquru ilə eyni fiqurdu. Fərqli cəhətləri isə, əllərinin hərəkətindəki cüzi fərqdi. Eskiz də əsərdən fərqli olaraq,böyük və balaca fırça zərbələri əsas yer tutur. Əsərdə isə ləkələr üstünlük təşkil edir. Bu diplom işində fiqurları ilkin planda olmasını kostyumlarının arxa plandan bir neçə dəfə tünd olmağı və üst hissələrində böyük həcmdə kontrast ləkələrin mövcud olmağı təmin edir. Yelpiyin şəffaf və açıq rəngdə olmağı , ağ rəngdəki maskalar həmçinin kişi, fiqurunun boğazındakı detal əlcəyi diqqətin birinci planda cəmləşməyinə kömək edən amillərdir.

Rəsmə baxanda rəngkarlıq elementlərinin qarşılıqlı əlaqəsini müəyyən eden anlayışlardan biri olan qammanı görürük. Qamma hər bir əsərin rənglər şkalasını əhatə etməklə, həm də bu rənglər arasındakı vəhdəti, ahəngi nəzərdə tutur.Bir sözlə hər rəssama aid "rəng toplusu"dur ki, məhz o, bütün əsərlərində bundan istifadə edir. Bu mənada da, gələcəyin peşəkar rəssamı kimi, mənim də rənglər palitramda yaşıl, göy rəngdən yaranan qammalar üstünlük təşkil edir.



Rəsmin koloritinin müəyyənləşməsi, eyni zamanda rənglərin ümumi həllində işığında böyük təsir edici rolu vardır. Ümumiyyətlə, rəng- işıq anlayışları ayrılmazdı. Bəzən bir rəsimdə işıq daha cox ya da daha az neytral,səpilmiş halda, digərlərində isə əksinə kompozisiyanın fəal

elementlərinə çevrilir. Rəsm əsərlərində parlaqlıq, yaxud əksinə tutqun ləkə tamaşaçını qeyri-ixtiyari şəkildə özünə cəlb edir.

Ay işığı əsərdəki mühitə fərqli abu hava qatmaqla birgə, kompozisiyanı açıq ləkə kimi tutub saxlayır,dağılmağa qoymur.

Həmçinin, qaranlıq mühit bu əsərdə mistika,sirr hissini yaradır. Əsərdə yarımçıq qalan, davam edən bir səhnə var. Bu da kompozisiyanın açıq olmağından irəli gəlir.

Açıq kompozisiyalara karnaval mövzusunda işləyən rəssamlardan ən çox Marcel Nino Pajotun əsərlərində rast gəlinir.

Bu əsərlərdə İtalyanların adət ənənələrinin əsil keçmişdəki kimi, məxfi, gizli, soyuq, sirli dünyasını aşkara çıxarmaq, əsərə tamaşa edən tamaşaçıda o hissləri oynadırmaq istədim. Bu əsərdə istifadə etdiyim sanki, yaşıl rəng qaranlıq abu- havanı söküb, dəniz ilə birləşib dərin bir ümman yaradıb. Bu dərin,sonsuz ümman insanda qorxu hisslərini oyandırır. Sanki səni də orda baş verən hadisələrin içinə atıb səni də özü ilə aparır.

## NƏTİCƏ

Beləliklə , Magistratura diplom işimdə, Venesiya Karnavalı mövzusunda işləyən rəssamlardan fərqli olaraq, rəng şkalasından kifayət qədər istifadə edərək, intriqa əhval ruhiyyəsini, mistik, sirli abu havanı verməyə çalışmışam.

Diplom işimdə ikisinin rəng, kolorit, kompozisiya bənzərliyi iki işi bir - birinə birləşdirir. Rəsm əsərində soyuq, yaşıl və mavi rəngin çalarlarına üstünlük vermişəm. Rəsim əsərlərinin ölçüləri də, həmçinin bir-birinə yaxındır. Birinci əsərin ölçüləri tək fiqurlu kompozisiya olduğu üçün digərindən çox az fərqlidir. Birinci əsər 115,0 x 87,0, ikinci əsər isə 115,0x 110,0 ölçüsündədir ki, bu ölçülər əsərləri birləşdirən başqa amillərdən biridir.

Kompozisiyada zərif kolorit səslənməsini məhv edən qışqıran,parlaq rənglərə üstünlük vermədim. Məncə çalışmaq lazımdır ki, naturanı, fiqura ilə harmoniya təşkil edərək onun rənglərinin gözəlliyini üzə çıxaran fonda qoyulsun.

İncəsənət ardı-arası kəsilməyən axtarışlar tələb edir. Ola bilər ki, hər hansı bir rəssamın yaradıcılığında bəzən özündən əvvəlki rəssamların izləri görünür. Amma incəsənətdə təbii

olmaq lazımdır. Rəssamın özünə məxsus yeri,rəngləri,fırça vuruşları, kompozisiyası, ləkələri olmalıdır.

## İSTİFADə OLUNMUŞ əDəBİYYAT:


1.http://besedka.co.il/index.php?showtopic=7541

2.http://subscribe.ru/group/mir-iskusstva-tvorchestva-i-krasotyi/6270277/

3.KARAVAN İSTORİY JURNALI, Karnaval v Venetsii,Vladimir Balabnev,səhifə 176,il. Moskva

4. Encres Violettes, Yazıçı:Gonthier illustrator: Marcel Pajot,Edititons De La Lauze, buraxılış:2007-ci il

5.ARTS ACTUALİTES MAGAZİNE,Thierry Sznytka, buraxılış:142nömrəli ,iyun/avgust 2004,Səhifə 86

6. PAJOT,Şəxsi kataloq, Yazıçılar:T. Sznytka,M.Testut,aprel 1,2004 cü il

7.Les Amis de la Poesie, buraxılış ili:yay 2007

8.Klassika: Tolstoy Petr Andreevic Putişestvie stolnika P.A. Tolstovo po Evrope()169/1699)

*9.* «Великий Венецианский карнавал». Документальный фильм. Италия, 2007, режиссёр Ф. Анфодилло

10. http://artnow.ru/en/gallery/3/639/picture/0/0.html

11. http: // artnow.ru/komarova elena

12. Buckton, David, et al., *The Treasury of San Marco Venice*, 1984, Metropolitan Museum of Art, (fully available online or as PDF from the MMA)

13. http://dreamvoyage.ru/blog/2007-05-11-8Венеция – город гондол и карнавальных масок

14. http://www.nice-places.com/articles/europe/venezia/315.htm

15. http://www.siberia-italia.narod.ru/carnevale_2007_ru.htm

16. http://www.destinations.ru/article/54

17. Бал масок на корабле призраков // Этносфера. – 2008. – № 2. – С. 38–42.

18. Гарретт М. Венеция : история города / Мартин Гарретт ; [пер. с англ. П. Щербатюк]. – М. : Эксмо ; СПб. : Мидгард, 2007. – 351 с.

19. Город–маскарад. венецианский карнавал // Праздник. – 2006. – № 1. – С. 19–20.

20. Кандалова Л. Карнавал в Венеции // Праздник. – 2007. – № 1. – С. 17–18.

21.Осипов Г. Вечные маски и ясноглазый лев // Новое время. – 2002. –№ 1/2. – С. 34–36.

22.Смай М. Карнавал и пицца "Четыре сезона" // Праздник. – 2006. –№ 1. – С. 15.

23.Сорокина И. Хлеба и зрелищ – лозунг бессмертный. [О венецианских карнавалах] // Музык. жизнь. – 2001. – № 6. – С. 41–42.

24.Терехова Е. Венецианский карнавал // Праздник. – 2002. – № 1. – С. 28–29:

25. http://translate.academic.ru

26.Шестова Н. Все дороги ведут в Венецию // Этносфера. – 2005. – № 3. – С. 38–39.

27.Шохина Т. Маска, я тебя знаю? // Крестьянка. – 2004. – № 2. – С. 78–81.

## Magistr Diplom İşlərim

**Venesiya Karnavalı.** 1 ci **əsər**



**''Venesiya Karnavalı''- kətan, yağlı boya**

**ölçüləri : 115,0 x87,0**

**2 ci rəsm əsəri**



''Venesiya Karnavalı''- kətan, yağlı boya

ölçüləri :    115,0 x100,0